# CƏLİL MƏMMƏDQULUZADƏ VƏ HÜSEYN CAVİD



*İsgəndər ATİLLA,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*Cavidşünas*

**(Yazıçı Anarın sualına cavab və Lütviyyə Əsgərzadənin mülahizələrinə münasibət)**

Hörmətli Anar bəy! Mən yaxşı bilirəm ki, Siz Mirzə Cəlili və Hüseyn Cavidi sevirsiniz, Cavidlər ailəsinə məhrəm olmusunuz. Müşkinaz xanım, Turan xanım və Ərtoğrol bəylə şəxsən tanış idiniz. Ərtoğrol bəyin arxivində araşdırmalar aparmısınız, haqqında mətbuatda böyük bir yazı çap etdirmisiniz... Televiziyanın "Mədəniyyət" kanalında hər iki yazıçının həyatı və taleyi, yaradıcılığı ilə bağlı verilişlər hazırlamış və nümayiş etdirmisiniz. Bir sözlə, vətəndaşlıq borcunuzu yerinə yetirmisiniz.

Yeri düşmüşkən deyim ki, mən də Cavidlər ailəsinə yaxın və məhrəm olmuşam. Turan Cavidlə 30 illik tanışlığım olub. Cavidin şəxsi arxivini araşdırmışam. Turan xanımın dəvəti ilə 10 il Cavidin Bakıdakı ev muzeyində çiyin-çiyinə çalışmışam. Cavidin və Cavidlərin taleyi və həyatı ilə bağlı məni nə maraqlandırmışdırsa, onu Turan xanımdan öyrənmişəm, başqa sözlə, nə tökübsə, onu yığmışam. Cavid haqqında "Əsrin şairi" silsiləsindən çap etdirdiyim 10 monoqrafiyada bunları nəzərə almışam. Onun razılığı və məsləhəti ilə ölkəmizin görkəmli ədəbiyyat və incəsənət xadimlərindən Cavid haqqında xatirələr toplamışam və çap etdirmişəm. Yenə onun razılığı ilə Cavidin qəbrinin Sibirdə axtarılıb tapılması və cənazəsinin Vətənə gətirilməsilə, Cavidin Bakıda Ev-Muzeyinin təşkilinin yubadılması ilə əlaqədar Mərkəzi Komitəyə, Yazıçılar İttifaqına, Mədəniyyət Nazirliyinə, qəzetlərə məktublarla dəfələrlə müraciət etmişəm və s. Şükürlər olsun ki, bunun sayəsində Cavidin anadan olmasının 100 illiyi ərəfəsində onun Sibirdə qəbri axtarılıb tapıldı və nəşi Azərbaycana gətirildi. Bu işdə başda Heydər Əliyev olmaqla, Həmid Cəfərovun, Telman Əliyevin və Zakir Nəsirovun böyük xidmətləri oldu. Tarix bu böyük hadisəni həmişə yaşadacaq və xatırladacaq.

Anar qardaşım, bilirəm, Sizi Naxçıvanda doğulmuş, boya-başa çatmış, yaradıcılıqda ilk addımlarını bu torpaqda atmış iki böyük sənətkarın arasında olan şəxsi münasibət çox maraqlandırır.

Hətta bir çox tanınmışlardan bu barədə sorğunuz da olub televiziyada. Sizin verdiyiniz sual sovet dövründə də, bu gün də çoxlarını maraqlandırırdı və maraqlandırır. Bu sorğu Cavidlə bağlı araşdırmalar aparan Lütviyyə xanımı da maraqlandırır. Mən bu sorğuya aydınlıq gətirmək istəyirəm. Bayaq dediyim kimi, bu iki görkəmli sənətkar bir torpaqda dünyaya göz açmış, demək olar ki, eyni mühitdə böyümüş və yaradıcılığa başlamış, bir-birinin müasiri olmuş, lakin dil-üslub, dünyagörüşü, yaradıcılıq metodu baxımından başqa-başqa ədəbi yol izləmişlər. Biri Azərbaycan ədəbiyyatı tarixinə böyük realist yazıçı kimi, o birisi böyük romantik yazıçı kimi daxil olmuşdur.

Cavid anadan olarkən Mirzə Cəlilin 20 yaşı vardı. O, artıq yaradıcılığa başlamışdı. Təbiidir ki, onlar bir-birini tanıyırdılar. Lakin zaman ötdükcə onların həm həyat, həm yaradıcılıq yolları ayrılırdı... Cavid 1905-ci ildə Qurbanəli bəy Şərifzadənin (Əziz Şərifin atasının) tövsiyyəsi və məsləhəti ilə İstanbula ali təhsil almaq üçün gedir. Burada validəxanada yaşayır və Güney Azərbaycanından və İrandan gələn tələbələrlə tanış olur. Qurbanəli bəy Şərifzadəyə yazdığı məktubda qeyd edir: "Onlardan (Yəni yuxarıda qeyd etdiyim tələbələrdən - İ.A.) "Həbibülmətin" və "İrşad" qəzetlərini alıb oxuyuram". Tiflis və Bakıda çıxan qəzet və jurnallara gəldikdə yazır: "Qafqazın möhnətəngiz xəbərlərini oxuduqda pərişanhal olmağı nəzərə alıb, bəzi sıxıntıları rəf etmək üçün "Molla Nəsrəddin" əmiyə də yazdım ki, qış gecələrindən ötrü fəna deyil deyə bir müddət Rusiyanın İstanbuldakı postasına yollansınlar". O, "Molla Nəsrəddin" jurnalının adını ilk dəfə 1906-cı ildə Qurbanəli Şərifova göndərdiyi məktubda çəkir. Ancaq jurnalın rus səfirliyinə göndərildiyi və onu alıb oxuduğu dəqiq məlum deyildir. Çünki, Q.Şərifova yazdığı sonrakı məktubların heç birində (cəmi 8 məktub yazıb) bu barədə heç nə yazmır.

Cavid 1909-cu ildə İstanbuldan vətənə qayıdır və 1912-1914-cü illərdə Tiflisdə yaşayır və özü dediyi kimi, Molla əmi ilə daha yaxından tanış olur. Bu barədə Əziz Şərifin "Keçmiş günlərdən" kitabında dəyərli məlumatlar var; onlardan bir neçəsinə nəzər salaq.

20 fevral 1913. Bu gün Cavid, Rza Təhmasib, Əliqulu Qəmküsar, Qurbanəli Şərifov və Əziz Şərif bir yerdə olmuşlar. Mirzə Cəlil də ordaydı... (s. 77). 7 mart 1913. Axşam Hüseyn [Cavid] və Rza [Təhmasib] ilə atamın yanına getdik. Şamdan qabaq Mirzə Cəlil də gəldi. Şam yeməyi yeyib söhbət edirdik... (s. 78).

30 noyabr 1913. Əziz Şərif kitabında yazır ki, "Molla Nəsrəddin" jurnalı və kontoru Tiflisdə Peski küçəsində yerləşirdi. "Söz yox, Hüseyn Cavid də hərdən bu evə ("Molla Nəsrəddin"in yerləşdiyi binaya- İ.A.) gəlirdi, lakin jurnalda bilavasitə iştirak etmirdi...(!!). O, müəllimlik edir və Şeytanbazar məhəlləsində yaşayırdı..." (s. 87).

Cavid Tiflisdə yararsız şəraitdə və evdə kirayəçi kimi yaşadığından dost və tanışlardan heç birini, o cümlədən Ə.Şərifi evinə dəvət etmir. Onlar ya "Auditoriyada", ya da "Molla Nəsrəddin" jurnalının redaksiyasında görüşürlər. Cavid həqiqətən də jurnalda iştirak etmirdi, səbəbi onun yaradıcılıq üslubu və metodu ilə bağlıdır. Yalnız bircə dəfə 36 misralıq "Novruz bayramı" şeirini jurnalda çap etdirir (№8, 1913). Cavid ailəsi ilə Bakıya köçüb gələrkən, Mirzə Cəlil sovet quruluşu ilə barışmayaraq, küsüb Təbrizə getmişdir. Təbiidir ki, onlar görüşə bilməzdilər. Yalnız o, 1920-ci illərin əvvəllərində Təbrizdən qayıtdıqdan sonra onlar Bakıda təşkil edilən ədəbi və mədəni tədbirlərdə görüşürdülər. Bu barədə Qulam Məmmədlinin "Cavid - ömrü boyu" salnaməsində (kitabında) qeydlər var.

Lakin iki böyük sənətkarın arasında olan münasibətlər çoxlarına və mənə də qaranlıq qalırdı. Bir gün dəqiq və səhih məlumat almaq üçün Turan xanımdan soruşdum: "Turan xanım, Mirzə Cəlillə Cavidin münasibətləri necə olmuşdur?" O, ağızdolusu dedi: "Çox yaxşı!" Və mənə belə bir əhvalat danışdı: "Yazıçıların birgə şəkli var, şəkil Tiflisdə 1929-cu ildə bir tədbirdən sonra çəkilib. Fotoqraf şəkli çəkərkən [özünü gözə soxmayan Cavid] kənarda dayanır. Mirzə Cəlil onu yanına çağırır və yanında otuzdurur. Bunu babamın özü mənə danışdı..."

Bax, budur həqiqət, iki böyük sənətkarın arasında olan ülfət, dostluq, sədaqət və münasibət! Belə bir fotonun Tiflisdə çəkilməsinin, Mirzə Cəlilin Cavidi yanına dəvət etməsinin başqa bir mənası var!.. O zaman Cavidin nəinki Azərbaycanda və türk sovet respublikalarında və bütün Sovet İttifaqında məşhurlaşdığı zaman idi. Mehdi Məmmədov demişkən, Cavid şəxsiyyətinin pərəstişə çevrildiyi bir zaman idi. Böyük Mirzə Cəlil bunu qiymətləndirməyə bilməzdi. Turan Cavidin söylədiyi "balaca fakt" kiməsə bapbalaca görünə bilər, amma dövrün iki böyük sənətkarı üçün, şəxsən mənim üçün, böyük faktdır. Bu, iki sənətkarın arasında olan səmimiyyət və münasibətin göstəricisidir. Mirzə Cəlil Cavidə, Cavid Mirzə Cəlilə hörmətsizlik edə bilməzdilər. "Ölülər" komediyasının ilk tamaşası haqqında ilk mülahizəni söyləyənlərdən biri və birincisi Cavid idi: « "Ölülər" son komediyalarımız içində parlaq bir mövqe tutar. "Ölülər"də sənətkaranı bir dirilik, mahiranə bir incəlik var. "Ölülər" sənətcə nə isə, məalca da odur. "Ölülər"in hər təbəssümündən acı bir fəryad qopar. "Ölülər" qüsursuz deyil, fəqət bu qüsur gözəl bir rəsmin ətrafında gözə çarpan ləkələr qədər təbii görünə bilər"» ("Açıq Söz" qəzeti, 1 may 1916). Romantik sənətkarın sözlərindəki romantikaya, incəliyə, lətafətə, tənqidi mülahizənin nəzakət və hörmətlə ifadə edilməsinə qibtə etmək olar. "Ölülər" ilk dəfə 1916-cı ildə Bakıda tamaşaya qoyulmuşdur. Cavid tamaşaya baxmış və bir jurnalistlə söhbətində həmin fikri söyləmişdir. Onun "Ölülər" haqqında söylədiyi fikir "Açıq Söz" qəzetində, "Tuti" jurnalında çap olunmuşdur. Qulam Məmmədli 1982-ci ildə çap etdirdiyi "Cavid - ömrü boyu" kitabında həmin fikri olduğu kimi vermişdir. "Tuti" jurnalı Cavidin pyesə sənətcə lətif qiymət verdiyini nəzərə alıb, "Sənət" sözünün mənasını aydınlaşdırmışdır.

Yeri gəlmişkən, bir neçə söz Mirzə Cəlilin "Xatiratım" əsəri çap edilərkən M.C.Bağırovun məsələyə müdaxiləsi barəsində. Guya əsər çap edilərkən orada "böyük nöqsanlara" yol verilmişdir.

Mirzə Cəlilin ölümündən sonra 1936-cı ildə onun seçilmiş əsərlərinin çap olunması qərara alınır. Qəzənfər Məmmədov bununla əlaqədar Mir Cəfər Bağırova məktub göndərir, təbiidir ki, sovet rejiminin qorxusundan. Məktubda xüsusi qeyd edir: "Ən böyük nöqsan - kitaba (seçilmiş əsərlərin 1-ci cildinə - İ.A.) daxil edilmiş "Xatiratım" dır. "Xatiratım"ın bir neçə yerində C.M-zadə qəzet - jurnal fəaliyyəti sahəsində qatı türkist millətçilər Əhmədbəy Ağayevin və Əlibəy Hüseynzadənin adlarını çəkir; H.M.Abdullanı (Cavidin atası Hacı Molla Abdullanı - İ.A.) xatırlayarkən yazır ki, O, bizim məşhur yazıçılarımızdan birisinin (Cavidin - İ.A.) atasıdır. Həmin yazıçı ifşa olunmuş xalq düşməni H.Caviddir".

Bu, 1930-cu illər üçün xarakterik, bu gün üçün kədərləndirici və acınacaqlı faktdır. Mirzə Cəlil "Xatiratım" əsərində Cavidi şöhrətli qələm sahiblərindən biri kimi qiymətləndirir. Bunu onun həmyerlisi, qələm yoldaşı, qələm dostu olan Cavidə hörməti kimi dəyərləndirmək olar.

M.C.Bağırov məktubun müəllifi Qəzənfər Məmmədovu yanına çağırır və deyir: "İndi də deyirsən, Cəlil Məmmədquluzadənin yazdıqlarını redaktə etsinlər? Axı o, bu əsəri yazanda nə Əhmədbəy Ağayev, nə Əlibəy Hüseynzadə, nə də digərləri sənin məktubunda deyildiyi kimi, "pantürkist və millətçi" adlandırılmırdı. Yaxşı, Hüseyn Cavidin atası haradan biləydi ki, oğlu "pantürkist" olacaqdır?..

M.C.Bağırov senzuranın (sovetin dövründə o qısaca "Qlavlit" adlanırdı) qadağasını ləğv edir. Cəlil Məmmədquluzadənin "Xatiratım" əsəri olduğu kimi çap olunur, onun Cavid haqqında fikri saxlanılır.

Müstəqillik illərində Cəlil Məmmədquluzadə- Hüseyn Cavid məsələsinin üzərinə "Hüseyn Cavid: mühiti və müasirləri" kitabının müəllifi Lütviyyə Əsgərzadə qayıdır. Belə bir fərziyyə irəli sürür ki, guya İstanbula oxumağa getməzdən əvvəl Mirzə Cəlilin Cavidə qarşı münasibəti isti, oradan qayıtdıqdan sonra soyuq olmuş və kəskin surətdə dəyişmişdir. O, bu haqda yazır: "Mirzə Cəlil İranda, Türkiyədə təhsil almış gənclərə münasibətini özünün "Anamın kitabı" əsərində açıq-aydın şəkildə ortaya qoymuşdur ki, bu da iki fərqli dünyagörüşündən, iki fərqli düşüncədən qaynaqlanırdı. Mirzə Cəlilin burada barışmadığı milli-mənlik şüurunun, mühitdən asılı olmayaraq, sona qədər qorunmaması məsələsi idi" (s. 54).

Mirzə Cəlilin özü Qori Müəllimlər Seminariyasını bitirmişdir. Cavid, məlumdur harada ali təhsil almışdır. Bizim başqa ziyalılarımız İranda, Türkiyədə, Rusiyada və Avropada təhsil almışlar və nə yaxşı ki almışlar, yoxsa ölkə savadsız və ziyalısız qalardı. AXC-nin dövründə bunun nə dərəcədə müsbət bir hal olduğu, xeyirli olduğu bir daha üzə çıxdı...

Müəllif iddia edir ki, guya yazıçı "Anamın kitabı" pyesini yazarkən Cavidi, böyük qardaşı Şeyx Məhəmmədi və kiçik qardaşı Əlirzanı nəzərdə tutmuşdur. Yeri düşmüşkən, Əlirza İstanbulda təhsil almamışdır, amma şeyx İranda təhsil almışdır, Cavid Talibiyyə mədrəsəsində bir il oxumuşdur. Mirzə Cəlil elə sənətkar deyildi ki, üç nəfər qardaşın əsasında pyes yazsın. O zaman Azərbaycanda, müsbət mənada, onlarca Şeyx Məhəmməd, Cavid və b. ziyalılar var idi; təkrar edirəm: nə yaxşı ki, var idi!..

*(Davamı var)*